**Azad Azərbaycan 13 iyul 2023.-S.7**

# Mənim ədəbi taleyim - zamanla, tarixlə görüş

*(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)*

## Redaksiyadan

**Xalq şairi, xalqımızın sevimlisi Nəriman Həsənzadənin Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi - "Mənim ədəbi taleyim-Zamanla, tarixlə görüş" adlı kitabını bu sayımızdan başlayaraq qəzetimizdə çap edirik. Bu kitab təkcə ulu öndər Heydər Əliyenin yox, həm də böyük dövlət xadimi, Azərbaycan üçün çox işlər görmüş Nəriman Nərimanovun və elə Xalq şairi Nəriman Həsənzadənin özünün də həyatına həsr olunub. Ümumiyyətlə, yaxşı, xeyirxah insanların bir zamanlar Nəriman Həsənzadəyə və Azərbaycan ədəbiyyatına elədyi köməkliklər bu kitabda özünün gözəl əksini tapıb.**

**Əziz oxucular inanırıq ki, bu yazılar sizin xoşunuza gələcək və Nəriman Nərimanova çamur, çirkab atan adanlara da bir görk və layiqli cavab olacaq.**

*(Əvvəli ötən saylarımızda)*

Bərdə pambıqçıları ilə görüşlərə gedəndə, mən də o səfər siyahısındaydım. Heydər Əliyev pambıq ustası Tərlan Musayevanın əhvalını, ailə vəziyyətini, işdə ona münasibəti, arzu və istəyini soruşurdu. Ayrılanda onun əməyinə yüksək qiymət verdi və belə bir qızla fəxr etdiyini bildirdi.

Mən də Bərdədən qayıdandan sonra Tərlan Musayevaya bir şeir həsr etdim. "Kommunist" qəzeti çap etmişdi.

O axşam mərhum Emin Sabitoğlu mənə zəng etdi ki, səhər radioya qulaq as. "Tərlan bacım" şeirinə nəğmə bəstələmişəm.

Emin həyəcanla deyirdi ki, Heydər Əliyev sənin qəzetdə çıxan şeirini oxuyub, bəyənib. Göstəriş verib ki, Eminə deyin, bu şeirə musiqi bəstələsin. Musiqini birnəfəsə, ilhamla yazmışam.

Nəğmə yayıldı. Dillər əzbəri oldu.

Emin də sevinirdi, mən də. Bərdədə Tərlan bacım da.

Heydər Əliyev bizdən az sevinmirdi.

Millətin böyük oğlu belə bir ürək sahibiydi.

* * *

Ə. X. Vəzirov Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə gəldiyi ilk günlərdə Yazıçılar İttifaqında hamımızla əl tutub görüşmüşdü.

Hadisələrin sonrakı gedişində isə Heydər Əliyevin vaxtilə apardığı yaradıcılıq-quruculuq hərəkatının əleyhinə dedi-qodu gəzir, qəzetlərdə məqalələr gedirdi. İstəyirdilər bizim qəzet də belə bir istiqamətdə "təşəbbüsə" qoşulsun. Bunu görmədikdə, Azərbaycan KP MK-nın orqanı "Kommunist" qəzetinin verdiyi məqalənin təkrarən "Ədəbiyyat və incəsənət"də də getməsinə təsir göstərirdilər.

Həmin məqalənin təkrar çapını mən müavinim və şair dostum Ayaz Vəfalı ilə demək olar ki, bir aya qədər ləngidə bildik. "Oxucuların xahişilə" rubrikası altında isə artıq "aktuallığını" və "maraq dairəsini" itirmişdi. Məlumdur ki, bir çox qəzet məqaləsi çıxdığı gün oxunmursa, köhnəlir. Buna baxmayaraq, ürəyimdə bir niskil qaldı...

O gecə oturub Moskvaya, Heydər Əliyevə bir məktub yazmaq istədim. Nə yazım? Bilmədim. Böyük Romalı Siseronun çıxılmaz vəziyyətə düşdüyü anı, bir də dediyi sözləri xatırladım. "Haradan qaçdığımı bilirəm, amma haraya qaçacağımı bilmirəm" - deyirdi.

Tanrım heç kəsi o vəziyyətə salmasın. Bu, həqiqətən qədim "Poetika"da yazılan "peripetiyalı kolliziya" idi. O gecə bir şeir yazdım.

**HAYIF O KƏSƏ Kİ...**

Dünən bir nəfərlə söhbətim olub,
Təzə dil açmışdı o qaradinməz.
Soruşma nəçiydi, özü kim olub,
Burda heç adını çəkməyə dəyməz.

Dalınca danışıb ağız büzürdü,
Sənin səhvlərini sapa düzürdü.
Tərəziyə qoyub çəkirdi səni,
Yer kimi şumlayıb əkirdi səni.

Guya bir budağı tutub əyirdi,
Amma yüz budağı silkələyirdi.
Qaynayıb-coşurdu millət adından,
Həyatı, varlığı millətə böhtan.

Belə ayaq açdı bir vaxt xəyanət,
belə ləkələndi əsl oğullar.
Belə donos yazdı Müşfiqə millət,
belə quyu qazdı dalda çuğullar.

Xain bacarsaydı işi qurardı,
suda toz görərdi, Günəşdə ləkə.
Cavidi təzədən o tutdurardı,
sonra da ağlardı qızıyla birgə.

Bir məqam axtarır o dar ayaqda,
"haqsızın" sözünü kəssin "haqq" üçün.
Böhtan deyiləndə qulaq asmaq da,
gizli xəyanətdi məncə xalq üçün.

Onun hər sifəti mənə bəllidi,
Gəmisi sahildən sahilə düşüb.
Bədbəxt - o kəsdi ki, - ikidillidi,
Hayıf, o kəsə ki, - pis dilə düşüb.

***1983***

Ə.Vəzirov Heydər Əliyevə yaxın olanları saymırdı. Qəzetimizdə Meydan mitinqlərindən gedən şəkilləri Büro iclaslarında pisləyirdi. Mən deyəndə ki, şəkilləri verməsək, fotomüxbirimizi öldürə bilərlər. Tez hirslənir və rusca "pustı ubivayut Qasanzade" sözlərini təkrar edə-edə üstümə qışqırırdı.

İşdən getməliydim.

Səbəb tezliklə tapıldı. Bakı Soveti sədrinin müavini Baqramyan soyadlı məmuru (deyilənə görə, marşal Baqramyanın qohumu olub) Bakıda, birinci Fəxri xiyabanda dəfn etmişdilər. Bunun əleyhinə Nəriman Həsənəliyev adlı kənar müəllif məqalə yazmışdı. Heç yerdə çap etdirə bilmirdi. Bizim "Ədəbiyyat və incəsənət"də getdi.

Ə.Vəzirov şəhər telefonu ilə redaksiyaya zəng vurub məni milli-ayrıseçkilikdə ittiham etdi. Əsəbi danışdı. Düzü, gözləmirdim.

1990-cı il Bakı gülləboranı zamanı (SSRİ müdafiə nazirinin başçılığı ilə Bakıya silahsız xalqın üstə rus-ermәni silahlı dəstələri göndərilmişdi) o da Çili prezidenti, kommunist Salvador Alyende kimi əlində avtomat öz xalqını müdafiə edə bilərdi. Zaman ona şans verməmişdi. Ancaq o, başqa yol seçdi...

İşdən getməyim barədə ərizəmi yazsam da (göstəriş verməmişdi ki, o qəzetdə Baş redaktor vəzifəsində qala bilməz), vəzifəmdə qalası oldum.

O zaman "Ədəbiyyat və incəsənət" qəzeti artıq indiki kimi "Ədəbiyyat qəzeti" adıyla çıxırdı.

Biz ədəbi mühitdə və ictimai fikirdə milli oyanış hisslərinə böyük əhəmiyyət verirdik. Aldığımız məktublar bunun göstəricisiydi.

Yazıçılar İttifaqının yeni tərtib etdiyi nizamnamədə isə göstərilirdi ki, İttifaqın mətbu orqanlarında on ildən artıq rəhbər vəzifədə işləmək olmaz. Mən on üç ildən artıq idi ki, Baş redaktor işləyirdim.

Yazıçıların növbəti plenumunda işdən azad olundum.

Bu, o vaxt idi ki, Azərbaycanda Müstəqillik aktını ilk imzalayanlar sırasında Heydər Əliyevdən sonra mənim də adım var idi. Əlbəttə, bu mənim imzamı şərəfləndirirdi.

Yeni iş axtarışımda Yazıçılar İttifaqının sədri, Xalq yazıçısı Anar müəllim Prezident aparatına, əlaqədar vəzifə sahiblərinə dəfələrlə, günlərlə zəng vurmuşdu. O vaxt da ona təşəkkür etmişdim, indi də böyük hörmətim var.



*(Ardı var)*

**Nəriman HƏSƏNZADƏ**